AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 26 (1486), 10 - 16 avqust 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

# Tokio-2020 Yay Olimpiya Oyunları başa çatdı

## *Olimpiya bayrağı 2024-cü ildə növbəti Olimpiadaya ev sahibliyi edəcək Fransaya təqdim olunub*



Avqustun 8-də Bakı vaxtı ilə saat 15:00-da Yaponiyanın Tokio şəhərindəki Milli Olimpiya Stadionunda XXXII Yay Olimpiya Oyunlarının möhtəşəm bağlanış mərasimi keçirilib.

Əvvəlcə meydana Yaponiyanın dövlət bayrağı gətirilib. Yaponiyanın dövlət himninin müşayiəti ilə dövlət bayrağı qaldırılıb. Açılış mərasimindən fərqli olaraq, bu dəfə Azərbaycan bir bayraqdarla təmsil olunub. Dövlət bayrağını Tokio-2020-nin sərbəst güləş yarışlarının gümüş medalçısı Hacı Əliyev daşıyıb. Ardınca isə idmançılar eyni qaydada meydanın mərkəzinə toplaşıblar.

Tokio-2020-də iştirak edən ölkələrin bayraqları meydana gətirildikdən sonra Olimpiya Oyunlarının maraqlı anlarının əks olunduğu videoçarx nümayiş etdirilib. Yarışların mükafatçılarının meydana gəlişi maraqlı anlarla yadda qalıb.

### *Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında medal qazanan ölkələr*

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. ABŞ | 39 | 41 | 33 | 113 |
| 2. Çin | 38 | 32 | 18 | 88 |
| 3. Yaponiya | 27 | 14 | 17 | 58 |
| 4. Böyük Britaniya | 22 | 21 | 22 | 65 |
| 5. Rusiya OK | 20 | 28 | 23 | 71 |
| 6. Avstraliya | 17 | 7 | 22 | 46 |
| 7. Niderland | 10 | 12 | 14 | 36 |
| 8. Fransa | 10 | 12 | 11 | 33 |
| 9. Almaniya | 10 | 11 | 16 | 37 |
| 10. İtaliya | 10 | 10 | 20 | 40 |
| 11. Kanada | 7 | 6 | 11 | 24 |
| 12. Braziliya | 7 | 6 | 8 | 21 |
| 13. Y.Zelandiya | 7 | 6 | 7 | 20 |
| 14. Kuba | 7 | 3 | 5 | 15 |

*(ardı 2-ci səhifədə)*






# Azərbaycan idmançıları Tokio-2020 Yay Olimpiya Oyunlarında 7 (3 gümüş, 4 bürünc) medal qazandılar

Avqustun 8-də Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarına yekun vuruldu. Bununla da Olimpiya yığmamız üçün daha bir olimpiada geridə qaldı. Komandamızın Olimpiya Oyunları tarixində 7-ci cəhdi 7 (3 gümüş, 4 bürünc) medalla yadda qaldı. Azərbaycan komandasına gümüş medalları karateçilər Rafael Ağayev (75 kq), İrina Zaretska (+61 kq), sərbəst güləşçi Hacı Əliyev (65 kq) qazandırdı. Cüdoçumuz İrina Kindzerska (+78 kq), boksçumuz Alfonso Dominges (81 kq), yunan-Roma güləşçimiz Rafiq Hüseynov (77 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) Tokio-2020-nin bürünc medallarına sahib çıxdı. Beləliklə, Azərbaycan 25 ildən sonra olimpiadanı qızıl medal qazanmadan başa vurdu. Komandamız bu nəticə ilə Tokio-2020-ni 67-ci sırada tamamladı.

*(ardı 3-cü səhifədə)*



## Tokio-2020-də uğurla çıxış edən karateçilərimiz Vətənə qayıdıblar

Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak edən Azərbaycan karateçiləri avqustun 9-da Vətənə qayıdıblar. Olimpiya Oyunları tarixində ilk dəfə Tokio Olimpiadasında keçirilən karate yarışlarında uğurla çıxış edən idmançılarımızı Heydər Əliyev Beynəlxalq Aeroportunda onların ailə üzvləri, ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, paytaxt sakinləri gül-çiçəklə qarşılayıblar.

Qeyd edək ki, Tokio-2020-yə yollanan karateçilərimizdən Rafael Ağayev (kumite, 75 kq) və İrina Zaretska (kumite, +61 kq) yalnız finalda uduzaraq gümüş medallara sahib çıxıblar. Digər karateçimiz Firdovsi Fərzəliyev (67 kq) isə yarışı medalsız başa vurub.

**UEFA Avropa Liqası** — **təsnifat**

**HİK - "Neftçi"**

**(Finlandiya) (Azərbaycan)**

*12 avqust. "Bolt Arena", Helsinki*
*Saat 20:00.*

**Avropa Konfrans Liqası** — **təsnifat**

**"Qarabağ" - AEL**

**( Azərbaycan) (Kipr)**

*12 avqust. "Azərsun Arena", Bakı*
*Saat 20:00.*

## *A n o n s*

*Tokio-2020 Yay Paralimpiya Oyunlarında komandamızın bayraqdarı İlham Zəkiyev olacaq*

Səh. 7

Vətən müharibəsinin şəhidlərinin xatirəsinə turnir keçirilib

Səh. 7

TOKİO - 2020



# Tokio-2020 Yay Olimpiya Oyunları başa çatdı

## *Olimpiya bayrağı 2024-cü ildə növbəti Olimpiadaya ev sahibliyi edəcək Fransaya təqdim olunub*

*(əvvəli 1-ci səhifədə)*

Tokio Milli stadionunda başlanan atəşfəşanlıqdan yaranan işıq zərrələri yağış şəklində meydana yağaraq Olimpiya Oyunlarının əsas rəmzi sayılan beş halqanı əmələ gətirib. Yaponiyanın məşhur "Tokyo Ska Paradaise" orkestrinin ifasında səslənən əyləncəli musiqinin sədaları altında müasir rəqslər ifa edilib.

Olimpiya Oyunlarının vətəni sayılan Yunanıstanın dövlət bayrağı qaldırılıb və dövlət himni səsləndirilib.

Sonra marafon yarışının qalibləri mükafatlandırılıblar. Əvvəlcə qadınlar arasında marafon yarışının qalibi keniyalı Peres Jepcircir, ikinci yeri tutan onun həmyerlisi Brigio Kosqey və üçüncü yerin sahibi ABŞ idmançısı Molli Seydelə mükafatları Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax və Beynəlxalq Atletika Federasiyasının prezidenti Sebastian Koe təqdim ediblər.

Sonra kişilər arasında marafon yarışının qaliblərinə mükafatlar təqdim olunub. Qızıl medala Keniya idmançısı Eliud Kipçoqe sahib olub. İkinci yeri niderlandlı Abdi Naqiay, üçüncü yeri isə Belçika idmançısı Başir Abdi tutub. Medalları mükafatçılara BOK-un vitse-prezidenti Anita DeFrantz və Beynəlxalq Atletika Federasiyasının prezidenti Sebastian Koe təqdim ediblər.

BOK-un Atletlər Komissiyasının yeni seçilmiş üzvlərinin təqdimatından sonra böyük yarışların ayrılmaz hissəsi olan könüllülərin bir qismi səhnəyə dəvət olunub və mükafatlandırılıblar.

Yaponiyanın ayrı-ayrı prefekturalarının nümayəndələri tərəfindən ifa edilən milli rəqslərin əks olunduğu videoçarx maraqla qarşılanıb. Yakuta və kimono geymiş iştirakçıların meydanda canlı ifa etdiyi "Bon Odori" milli rəqsinə Olimpiya Oyunlarının mükafatçıları da qoşulublar.

Tokionun qubernatoru Koike Yuriko və Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın iştirakı ilə BOK-un bayrağı endirilib.

Xanım Koike Yuriko Olimpiya bayrağını BOK-un prezidenti Tomas Baxa, o isə 2024-cü ildə növbəti Olimpiadaya ev sahibliyi edəcək Paris şəhərinin meri Ann İdalqoya təqdim edib. Fransanın dövlət himni səsləndirilib. Fransa ilə qurulan birbaşa bağlantıda Paris sakinlərinin, idmançıların Olimpiada estafetini qarşılamağa hazır olduğu əksini tapıb.

Mərasimdə çıxış edən Tokio-2020-nin Təşkilat Komitəsinin sədri xanım Seyko Haşimoto və BOK-un prezidenti Tomas Bax Olimpiadanın yüksək dostluq şəraitində keçdiyini, koronavirus pandemiyasına baxmayaraq, Tokionun yeni tarix yazdığını və yarışın uğurlu təşkil olunduğunu diqqətə çatdırıblar.

BOK prezidenti Tomas Bax Tokio-2020 Olimpiya Oyunlarını bağlı elan edib.

Qeyd edək ki, Tokio-2020 bir sıra özünəməxsus cəhətləri ilə əvvəlki olimpiadalardan seçilib. Belə ki, Yaponiya paytaxtında ikinci dəfə təşkil edilən Olimpiya Oyunları bütün dünyada tüğyan edən koronavirus pandemiyası səbəbindən bir il müddətinə təxirə salınıb. Təşkilatçıların birlikdə qəbul etdikləri qərara əsasən, əcnəbi tamaşaçıların yarışlara azarkeşlik etmək üçün Yaponiyaya gəlişi qadağan edilib. Yarışları izləmək üçün Yaponiyaya gələn rəsmi nümayəndə heyətlərinin tərkibi də kəskin azaldılıb.

Tokioda və beş prefekturada epidemioloji vəziyyətin ağır olması nəzərə alınaraq buradakı yarışlara yerli tamaşaçıların buraxılmasına icazə verilməyib. Yarışlar fövqəladə vəziyyət rejiminin davam etdiyi şəraitdə keçirilsə də, təşkilatçılar onların yüksək səviyyədə təşkilinə nail ola biliblər.

XXXII Yay Olimpiya Oyunları idman növlərinin (33 idman növü) və oynanılan medalların sayına (339 medal) görə ən böyük idman yarışı olub. Komanda hesabında ABŞ yığması birinci, Çin komandası ikinci, Yaponiya millisi isə üçüncü yeri tutub.















### *Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında medal qazanan ölkələr*

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 15. Macarıstan | 6 | 7 | 7 | 20 |
| 16. C.Koreya | 6 | 4 | 10 | 20 |
| 17. Polşa | 4 | 5 | 5 | 14 |
| 18. Çexiya | 4 | 4 | 3 | 11 |
| 19. Keniya | 4 | 4 | 2 | 10 |
| 20. Norveç | 4 | 2 | 2 | 8 |
| 21. Yamayka | 4 | 1 | 4 | 9 |
| 22. İspaniya | 3 | 8 | 6 | 17 |
| 23. İsveç | 3 | 6 | 0 | 9 |
| 24. İsveçrə | 3 | 4 | 6 | 13 |
| 25. Danimarka | 3 | 4 | 4 | 11 |
| 26. Xorvatiya | 3 | 3 | 2 | 8 |
| 27. İran | 3 | 2 | 2 | 7 |
| 28. Serbiya | 3 | 1 | 5 | 9 |
| 29. Belçika | 3 | 1 | 3 | 7 |
| 30. Bolqarıstan | 3 | 1 | 2 | 6 |
| 31. Sloveniya | 3 | 1 | 1 | 5 |
| 32. Özbəkistan | 3 | 0 | 2 | 5 |
| 33. Gürcüstan | 2 | 5 | 1 | 8 |
| 34. Çin Taypeyi | 2 | 4 | 6 | 12 |
| 35. Türkiyə | 2 | 2 | 9 | 13 |
| 36-37. Uqanda | 2 | 1 | 1 | 4 |
| 36-37. Yunanıstan | 2 | 1 | 1 | 4 |
| 38. Ekvador | 2 | 1 | 0 | 3 |
| 39-40. İrlandiya | 2 | 0 | 2 | 4 |
| 39-40. İsrail | 2 | 0 | 2 | 4 |
| 41. Qətər | 2 | 0 | 1 | 3 |
| 42-43. Baham ad. | 2 | 0 | 0 | 2 |
| 42-43. Kosovo | 2 | 0 | 0 | 2 |
| 44. Ukrayna | 1 | 6 | 12 | 19 |
| 45. Belarus | 1 | 3 | 3 | 7 |
| 46-47. Rumıniya | 1 | 3 | 0 | 4 |
| 46-47. Venesuela | 1 | 3 | 0 | 4 |
| 48. Hindistan | 1 | 2 | 4 | 7 |
| 49. Honq Konq | 1 | 2 | 3 | 6 |
| 50-51. Filippin | 1 | 2 | 1 | 4 |
| 50-51. Slovakiya | 1 | 2 | 1 | 4 |
| 52. CAR | 1 | 2 | 0 | 3 |
| 53. Avstriya | 1 | 1 | 5 | 7 |
| 54. Misir | 1 | 1 | 4 | 6 |
| 55. İndoneziya | 1 | 1 | 3 | 5 |
| 56-57. Efiopiya | 1 | 1 | 2 | 4 |
| 56-57. Portuqaliya | 1 | 1 | 2 | 4 |
| 58. Tunis | 1 | 1 | 0 | 2 |
| 59-62. Estoniya | 1 | 0 | 1 | 2 |
| 59-62. Fici | 1 | 0 | 1 | 2 |
| 59-62. Latviya | 1 | 0 | 1 | 2 |
| 59-62. Tailand | 1 | 0 | 1 | 2 |
| 63-65. Bermud ad. | 1 | 0 | 0 | 1 |
| 63-65. Mərakeş | 1 | 0 | 0 | 1 |
| 63-65. Puerto Riko | 1 | 0 | 0 | 1 |
| 66. Kolumbiya | 0 | 4 | 1 | 5 |
| 67. AZƏRBAYCAN | 0 | 3 | 4 | 7 |
| 68. Dominikan res. | 0 | 3 | 2 | 5 |
| 69. Ermənistan | 0 | 2 | 2 | 4 |
| 70. Qırğızıstan | 0 | 2 | 1 | 3 |
| 71. Monqolustan | 0 | 1 | 3 | 4 |
| 72-73. Argentina | 0 | 1 | 2 | 3 |
| 72-73. San-Marino | 0 | 1 | 2 | 3 |
| 74-76. İordaniya | 0 | 1 | 1 | 2 |
| 74-76. Malayziya | 0 | 1 | 1 | 2 |
| 74-76. Nigeriya | 0 | 1 | 1 | 2 |
| 77-82. Bəhreyn | 0 | 1 | 0 | 1 |
| 77-82. S.Ərəbistanı | 0 | 1 | 0 | 1 |
| 77-82. Litva | 0 | 1 | 0 | 1 |
| 77-82. Ş.Makedoniya | 0 | 1 | 0 | 1 |
| 77-82. Namibiya | 0 | 1 | 0 | 1 |
| 77-82. Türkmənistan | 0 | 1 | 0 | 1 |
| 83. Qazaxıstan | 0 | 0 | 8 | 8 |
| 84. Meksika | 0 | 0 | 4 | 4 |
| 85. Finlandiya | 0 | 0 | 2 | 2 |
| 86-93. Botsvana | 0 | 0 | 1 | 1 |
| 86-93. Burkina Faso | 0 | 0 | 1 | 1 |
| 86-93. Fil Dişi Sahili | 0 | 0 | 1 | 1 |
| 86-93. Qana | 0 | 0 | 1 | 1 |
| 86-93. Qrenada | 0 | 0 | 1 | 1 |
| 86-93. Küveyt | 0 | 0 | 1 | 1 |
| 86-93. Moldova | 0 | 0 | 1 | 1 |
| 86-93. Suriya | 0 | 0 | 1 | 1 |

TOKİO - 2020



# Azərbaycan idmançıları Tokio-2020 Yay Olimpiya Oyunlarında 7 (3 gümüş, 4 bürünc) medal qazandılar

*(əvvəli 1-ci səhifədə)*

“Olimpiya dünyası” qəzeti Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında ölkəmizə medal qazandıran idmançıların, eləcə də mükafatçılar sırasına düşə bilməyən atletlərimizin çıxışını təqdim edir.

Tokio Olimpiadasında komandamıza ilk medalı cüdoçumuz İrina Kindzerska qazandırıb. +78 kq çəki dərəcəsində çıxış edən xanım cüdoçumuz




olimpiadaya 1/8 finaldan başlayıb. Cüdoçumuzun bu mərhələdə ilk rəqibi Larisa Tseriçlə (Bosniya və Herseqovina) olub. Rəqibinə ipponla qalib gələn İrina növbəti mərhələyə vəsiqə qazanıb. Yarımfinala vəsiqə uğrunda görüşdə cüdoçumuzun rəqibi Cənubi Koreya təmsilçisi Min-Cin Han olub. Bu rəqibini də ipponla üstələyən cüdoçumuz yarımfinala vəsiqə əldə edib. İ.Kindzerska finalın bir addımlığında yaponiyalı Akira Sone ilə qarşılaşıb. Təəssüf ki, idmançımız finala çıxış görüşündə güclü rəqibi ilə mübarizədən məğlub ayrılıb. Lakin cüdoçumuz medal şansını saxlayıb. Belə ki, 30 yaşlı idmançımız bürünc medal uğrunda görüşdə çinli Şiyan Hu ilə üz-üzə gəlib. Həlledici görüşdə rəqibini ipponla məğlub edən İrina Kindzerska Tokio-2020-nin bürünc medalına sahib çıxıb. Bu, həm də Azərbaycan yığmasının Tokio Olimpiadasında qazandığı ilk medal olub.

* * *



Komandamıza Tokio Olimpiadasında ikinci medalı boksçumuz Alfonso Dominges qazandırıb. 81 kq çəki dərəcəsində yer alan dəri əlcək ustamız ilk görüşündə özbəkistanlı Dilşodbek Ruzmetovla qarşılaşıb. Rəqibinə 4:1 hesabı ilə qalib gələn A.Dominges 1/4 finala vəsiqə qazanmağı bacarıb. Onun bu raunddakı rəqibi türkiyəli Bayram Malkan olub. 26 yaşlı idmançımız türkiyəli rəqibini də üstələyib. Yarımfinala vəsiqə qazanan boksçumuz ən azı bürünc medalı özü üçün təmin edib. İdmançımız medalın əyarını dəyişmək üçün yarımfinalda son Olimpiya çempionu kubalı Arlen Lopeslə qarşılaşıb. Rəqibinə məğlub olan A.Dominges olimpiadanın bürünc medalı ilə kifayətlənib.

* * *

Komandamıza növbəti bürünc medalı yunan-Roma güləşçimiz Rafiq Hüseynov (77 kq) qazandırıb. Güləş yarışlarının ilk günündə mübarizə aparan pəhləvanımız 1/8 finalda isveçli Aleks Kessidislə üz-üzə gəlib.



Qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb. R.Hüseynov sonuncu xal prinsipinə əsasən qalib gələrək 1/4 finala vəsiqə qazanıb. O, bu mərhələdə Akjol Mahmudovla (Qırğızıstan) qarşılaşıb. Təəssüf ki, idmançımız bu dəfə rəqibinə 1:9 hesabı ilə məğlub olub. Qırğızıstanlı idmançının finala vəsiqə qazanması Rafiq Hüseynovun bürünc medal üçün təsəlliverici görüşdə iştirak etməsinə şərait yaradıb. R.Hüseynov ertəsi gün keçirilən təsəlliverici görüşdə tunisli Lamjed Maafi ilə qarşılaşıb. Görüş güləşçimizin 11:1 hesablı qələbəsi ilə başa çatıb. Pəhləvanımız bu qələbə sayəsində bürünc medal uğrunda görüşə vəsiqə əldə edib. Həlledici görüşdə güləşçimizin rəqibi Ermənistan təmsilçisi Karapet Çalyan olub. Prinsipial görüşdə ermənistanlı güləşçiyə 4:1 hesabı ilə qalib gələn Rafiq Hüseynov Tokio Olimpiadasının bürünc medalına sahib çıxıb.

* * *

Tokio-2020-də komandamıza ilk gümüş medalı karateçimiz Rafael Ağayev qazandırıb. Oyunlarda ölkəmizi 75 kq çəki dərəcəsində təmsil edən karateçimiz püşkə əsasən, B qrupunda mübarizə aparıb. İdmançımız ilk görüşünü Almaniya təmsilçisi Noa Biçə qarşı keçirib. Rafael Ağayev gərgin keçən görüşdə rəqibinə 2:1 hesabı ilə qalib gəlib. O, qrupda növbəti görüşünü avstraliyalı Çuneari Yahiroya qarşı keçirib. Təmsilçimiz bu görüşdə yapon əsilli rəqibi üzərində 5:0 hesablı inamlı qələbə qazanıb.

5 qat dünya, 11 qat Avropa çempionumuz üçüncü qarşılaşmasında




qazaxıstanlı Nurqanad Ajikanovla qarşılaşıb. Görüşdə rəqibinə 3:2 hesabı ilə qalib gələn Rafael yarımfinala vəsiqəni rəsmiləşdirib. O, həmçinin bu qələbə ilə bürünc medalı da özü üçün təmin edib.

36 yaşlı idmançımız qrupun son görüşündə italiyalı Luici Busa ilə qarşılaşıb. Karatenin brilyantı bu görüşdə rəqibinə 1:3 hesabı ilə məğlub olub. Beləliklə, keçirdiyi dörd görüşdən üçünü qələbə ilə başa vurub, birində məğlub olan karateçimiz qrupda altı xalla ikinci yeri tutub. İdmançımız son görüşdə aldığı məğlubiyyətə baxmayaraq qrupda ikinci yeri tutaraq yarımfinala vəsiqə qazanıb.

R.Ağayev yarımfinalda A qrupunun lideri macarıstanlı Qabor Harşpataki ilə qarşılaşıb. Təmsilçimiz finala çıxış uğrunda görüşdə rəqibinə 7:0 hesabı ilə qalib gəlib. Həlledici görüşdə yenidən italiyalı Luici Busa ilə qarşılaşan Rafael gərgin mübarizə şəraitində keçən qarşılaşmada rəqibinə 1:0 hesabı ilə məğlub olub. Bununla da, Rafael Ağayev Tokio Olimpiadasının gümüş medalına sahib çıxıb.

Qeyd edək ki, karate yarışları ilk dəfə olaraq olimpiadalar tarixində Tokio-2020-nin proqramına daxil olub.

* * *

Tokio Olimpiadasında komandamıza növbəti gümüş medalı sərbəst güləş üzrə üçqat dünya çempionumuz Hacı Əliyev qazandırıb. 65 kq çəki dərəcəsində mübarizə aparan idmançımız 1/8 finalda seneqallı Adama Diatta ilə üz-üzə gəlib. Görüş Hacı Əliyevin 4:0 hesablı inamlı qələbəsi ilə başa çatıb. İdmançımız bu qələbə ilə adını 1/4 finala yazdırıb. Pəhləvanımızın növbəti mərhələdə qazaxıstanlı Daulet Niyazbekovla qarşılaşıb. Bu görüşdə də güləşçimiz rəqibini üstələyib - 9:1. Hacı Əliyev bu qələbə ilə yarımfinala vəsiqəni təmin edib.



Güləşçimiz yarımfinalda hindistanlı Bacranq Puniya ilə qarşılaşıb. Təmsilçimiz bu görüşdə rəqibinə 12:5 hesabı ilə qalib gələrək, finala vəsiqə qazanıb. Hacı Əliyev həlledici görüşdə yaponiyalı Takuto Otoquro ilə qarşılaşıb. Güləşçimiz gərgin mübarizə şəraitində keçən görüşdə rəqibinə 5:4 hesabı ilə məğlub olaraq, Tokio-2020-nin gümüş medalına sahib çıxıb.

* * *

Tokio-2020-nin daha bir bürünc medalını komandamıza üçqat Olimpiya mükafatçımız Mariya Stadnik (50 kq) qazandırıb. Azərbaycan qadın güləşinin ən parlaq simalarından biri olan 8 qat Avropa çempionumuz ilk qarşılaşmasını 1/8 finalda rusiyalı güləşçi Stalvira Orşuşa qarşı keçirib. Gərgin mübarizə şəraitində keçən görüş Mariya Stadnikin 9:7 hesablı qələbəsi ilə başa çatıb. İdmançımız bu qələbə sayəsində adını 1/4 finala yazdırıb. O, növbəti mərhələdə tunisli Sarra Hamdi ilə qarşılaşıb. Olimpiya mükafatçımız bu görüşdə rəqibi üzərində inamlı qələbə qazanıb -10:0. İdmançımız finala gedən yolda yaponiyalı Yui Susaki ilə üz-üzə gəlib. Bu çəki dərəcəsində M.Stadnikin əsas rəqibi olan Yui Susaki təşəbbüsü əldən verməyib.



Güləşçimiz böyükhesablı məğlubiyyətlə üzləşib - 0:11. Lakin idmançımız iştirak etdiyi dördüncü olimpiadasını əliboş tərk etməyib. Belə ki, ertəsi gün bürünc medal üçün xalça üzərinə çıxan Mariya Namuuntsetseq Oçiri (Monqolustan) ilə qarşılaşıb. Rəqibinə 10:0 hesabı ilə qalib gələn güləşçimiz Tokio-2020-nin bürünc medalına sahib çıxaraq Azərbaycanın Olimpiya Oyunları tarixində rekord göstəriciyə nail olub. Belə ki, 8 qat Avropa çempionumuz ardıcıl olaraq iştirak etdiyi 4-cü olimpiadasını da medalla başa vurub.

Qeyd edək ki, 33 yaşlı güləşçimiz Tokio-2020-dən əvvəl Pekin-2008-də bürünc, London-2012 və Rio-2016-da isə gümüş medala layiq görülüb. Bununla da, Mariya Stadnik Olimpiya Oyunlarında 4 medal qazanan ilk idmançımız kimi tarixə keçib. O, bu nəticə ilə sərbəst güləşçimiz Xetaq Qazyumovu geridə qoyaraq, rekordu ələ keçirib.

Xatırladaq ki, idmançı karyerasını başa vuran Xetaq Qazyumov Pekin-2008 və London-2012-də bürünc, Rio-2016-da isə gümüş medala sahib çıxmışdı.

Qeyd edək ki, Mariya Stadnik həmçinin güllə atıcımız İradə Aşumovanın 4 Olimpiadada iştirak etmə rekordunu da təkrarladı.

* * *

Azərbaycan komandasına Tokio Olimpiadasının sonuncu medalını karate yarışlarının son günündə mübarizəyə başlayan İrina Zaretska qazandırıb. 61 kq-dan yuxarı çəkidə çıxış




edən dünya və Avropa çempionumuz A qrupundakı ilk görüşündə yaponiyalı Ayumi Uekusa ilə qarşılaşıb. Həmin görüşdə təmsilçimiz qələbə qazanıb - 4:1. Qrupda növbəti görüşündə İrina italiyalı Silviya Semeraroya 3:2 hesabı ilə qalib gəlib. Lakin karateçimiz üçüncü görüşdə Sofya Berultsevaya (Qazaxıstan) qarşı mübarizədə təşəbbüsü əldən verib - 4:5.

Qrupda keçirdiyi son görüşdə İrina Zaretska türkiyəli Meltem Akyola 4:0 hesabı ilə qalib gələrək qrup lideri kimi yarımfinala vəsiqə qazanıb. İdmançımız bununla eyni zamanda, ən azı bürünc medalı da özünə təmin edib. Karateçimiz yarımfinalda çinli Gong Lini mübarizədən kənarlaşdırıb - 7:2. Finala yüksələn titullu idmançımız qızıl medal uğrunda misirli Feryal Abdelazezlə həlledici görüşə çıxıb. Lakin İrina Zaretska bu görüşdə məğlub olaraq (0:2) Tokio-2020-ni gümüş medalla tamamlayıb.

# TOKİO - 2020



## XXXII Yay Olimpiya Oyunlarında medal qazanan idmançılarımız



**Adı:** Hacı
**Soyadı:** Əliyev
**Təvəllüdü:** 21.04.1991
**İdman növü:** sərbəst güləş
**Çəkisi:** 65 kq
**Nailiyyətləri:** Avropa çempionatında I yer (2014, 2018, 2019), dünya çempionatında I yer (2014, 2015, 2017), Bakı-2015 I Avropa Oyunlarında III yer, Minsk-2019 II Avropa Oyunlarında I yer, Rio-2016 Yay Olimpiya Oyunlarında III yer, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında I yer, Tokio-2020 Yay Olimpiya Oyunlarında II yer.

- Final görüşü üçün hər şeyi düzgün qurmuşdum və yaxşı fikirləşmişdim. Bunu xalça üzərində olanda da hiss edirdim. Rəqib sonuncu saniyələrdə ayağıma girərək fənd işlətməyə çalışırdı. Düzdür, o, bunu görüş ərzində 5-6 dəfə də etməyə cəhd göstərmişdi. Amma yaxşı müdafiə olunduğum üçün rəqibə şans vermirdim. Görüşün sonlarında isə alınmadı. Rəqib heç nədən görüşü saxlayırdı. Guya zədə almışdı. Tez-tez görüşü saxlayır və güləşə zidd hərəkətlər edirdi. Kəllə vururdu və cırmaq atırdı. Qızıl medal üçün hər şeyi etmişdim, çox əziyyət çəkmişdim. Amma istəmərəm ki, ədalətsiz danışım. Rəqib görüşün sonlarına yaxın qaçırdı və bir xal fərqi ilə məğlub oldum. Əlimdən gələni etdim. Bəlkə də, bu, son olimpiadamdır. Olimpiya Oyunlarını medalla başa vurduğum üçün çox sevinirəm.



**Adı:** Rafael
**Soyadı:** Ağayev
**Təvəllüdü:** 04.03.1985
**İdman növü:** karate
**Çəkisi:** -75 kq
**Nailiyyətləri:** Avropa çempionatında I yer (2004, 2005, 2007, 2008, 2009, 2010, 2013, 2015, 2016, 2018), dünya çempionatında I yer (2006, 2008, 2010, 2016 2018), III İslam Həmrəyliyi Oyunlarında I yer (2013), IV İslam Həmrəyliyi Oyunlarında I yer (2017), Dünya Döyüş Oyunlarında I yer (2013), Bakı-2015 I Avropa Oyunlarında I yer, Minsk-2019 II Avropa Oyunlarında II yer, Tokio-2020 Yay Olimpiya Oyunlarında II yer.

- Tokioya qızıl medal üçün gəlmişdim. Təəssüf ki, gümüş mükafat qazandım. Finalda hakim haqsızlığı ilə üzləşdim. Bəhanələri sevmirəm. Olan oldu. Bu günə də şükürlər olsun.

Olimpiya medalı mənim kolleksiyamda yox idi. Karate ilk dəfə idi ki, olimpiadanın proqramına salınıb. 30 ildir ki, mən bunun həsrətində idim. Karate əvvəl proqramda yer alsa idi, bəlkə də Olimpiya çempionu olardım. Aldığımız məlumata görə, karate ilk və sonuncu dəfə olimpiadaların proqramında olub. Amma 2028-ci ildə də proqrama salına bilər. Buna isə yaşım imkan verməyəcək. Karyeramı 2025-ci ildə bitirmək, sonra öz məktəbimi açmaq istəyirəm. Karateni hər gün öyrənirsən. Bildiklərimi gənclərə çatdıracağam. Ölkəmizə Avropa, dünya və Olimpiya çempionları bəxş etmək istəyirəm.



**Adı:** İrina
**Soyadı:** Zaretska
**Təvəllüdü:** 04.03.1996
**İdman növü**: karate
**Çəkisi:** -68 kq
**Nailiyyətləri:** Avropa çempionatında I yer (2016, 2021), II yer (2018), dünya çempionatında I yer (2018), Bakı-2015 I Avropa Oyunlarında I yer, Minsk-2019 II Avropa Oyunlarında I yer, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında I yer, Tokio-2020 Yay Olimpiya Oyunlarında II yer.

- Bilirdim ki, qızıl ala biləcək sonuncu idmançı idim və buna çox az qalmışdı. Sözün əsl mənasında mənə 1 saniyə çatmadı. İndi anlayıram ki, bu necə vacib idi. Mənə dəstək olan hər kəsə təşəkkür edirəm. Bilirəm ki, bütün Azərbaycan məndən qızıl medal gözləyirdi. Mənə yazırdılar, dəstək olurdular. Dəstəyiniz üçün çox sağ olun və məni bağışlayın.



**Adı:** Rafiq
**Soyadı:** Hüseynov
**Təvəllüdü:** 16.05.1988
**İdman növü:** yunan-Roma güləşi
**Çəkisi:** 77 kq
**Nailiyyətləri:** Avropa çempionatında I yer (2011, 2020), III yer (2018), Bakı-2015 I Avropa Oyunlarında II yer, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında II yer, Tokio-2020 Yay Olimpiya Oyunlarında III yer.

- Olimpiya medalını qazandığım üçün çox sevinirəm. Bu, çoxdankı arzum idi. Bütün medallarım var idi, təkcə Olimpiya Oyunlarında medal qazanmamışdım. Olimpiadada hər dəfə iştirak etmək nəsib olmur. Çox şadam ki, bu dəfə Olimpiadada iştirak edə bildim və medal qazandım. Qələbə qələbədir və hər hansı millətdən olan idmançıya fərq qoymuram. Əsas odur ki, medal qazanmışam və çox sevinirəm. Mənim üçün bundan böyük qələbə yoxdur. Təbii ki, heç bir halda bürünc medal qızılın yerini vermir. Amma əsas odur ki, komandaya medal qazandırdım.



**Adı:** Mariya
**Soyadı:** Stadnik
**Təvəllüdü:** 03.12.1988
**İdman növü:** qadın güləşi
**Çəkisi:** 50 kq
**Nailiyyətləri:** Avropa çempionatında I yer (2008, 2009, 2011, 2014, 2016, 2017, 2018, 2021), Dünya çempionatında I yer (2009, 2018, 2019), Bakı-2015 I Avropa Oyunlarında I yer, Minsk-2019 II Avropa Oyunlarında I yer, Pekin-2008 Yay Olimpiya Oyunlarında III yer, London-2012 Yay Olimpiya Oyunlarında II yer, Rio-2016 Yay Olimpiya Oyunlarında II yer, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında I yer, Tokio-2020 Yay Olimpiya Oyunlarında III yer.

- Olimpiya Oyunlarının bürünc mükafatçısı olduğum üçün özümü çox xoşbəxt hiss edirəm. O qədər xoşbəxtəm ki, sanki qızıl medal əldə etmişəm. Hisslərimi sözlə ifadə etmək mümkün deyil. Düzdür, qızıl medal qazana bilmədiyim üçün həmin gün çox məyus olmuşdum. Lakin Olimpiya medalının dəyərini indi daha yaxşı anlayıram. Neçə idmançının mənim yerimdə olmaq istədiyini görürəm. Keçdiyim idman karyeram üçün Tanrıya təşəkkür edirəm.





**Adı:** İrina
**Soyadı:** Kindzerska
**Təvəllüdü:** 13.06.1991
**İdman növü:** cüdo
**Çəkisi:** +78 kq
**Nailiyyətləri:** Avropa çempionatında III yer (2013), II yer (2020), dünya çempionatında III yer (2017), Minsk-2019 II Avropa Oyunlarında III yer, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında (şəxsi və komanda) II yer, Tokio-2020 Yay Olimpiya Oyunlarında III yer.

- Çox xoşbəxtəm. Hisslərimi sözlə ifadə edə bilmirəm. Oyunlara tam hazır idim və görüşlərimə maksimum köklənmişdim. Hamıya sübut etmək istəyirdim ki, Azərbaycanda qadın cüdosu mövcuddur, sadəcə, çalışmaq lazımdır. Qazandığım medal digər qadın cüdoçulara da gələcək karyeralarında təkan ola bilər. Yarışlardakı çıxışlarıma gəlincə isə yarımfinalda yaponiyalı Akira Soneyə uduzmağım məni çox məyus etdi. Bu görüşdən sonra toparlanmaq psixoloji cəhətdən ağır idi. Amma anladım ki, ikinci məğlubiyyət mənə medalı itirməyim bahasına başa gələ bilər. Sadəcə, buna imkan verməməliyəm. Bunun üçün də bütün gücümü ortaya qoyub çinli idmançıya qalib gələrək, mükafatçılar sırasında yer aldım.



**Adı:** Alfonso
**Soyadı:** Dominqes
**Təvəllüdü:** 28.05.1995
**İdman növü:** boks
**Çəkisi:** 81 kq
**Nailiyyətləri:** Minsk-2019 II Avropa Oyunlarında I yer, Tokio-2020 Yay Olimpiya Oyunlarında III yer.

- Medal qazandığım üçün çox sevincliyəm. Tokioda məqsədim çempion olmaq idi. Yarışa da yaxşı başlamışdım. Olimpiadada dünya çempionatının ikincisi olan özbəkistanlı Dilşotbek Ruzmetovla, türkiyəli Bayram Malkanla, yarımfinalda isə kubalı Arlen Lopezlə üz-üzə gəldim. Olimpiya və dünya çempionu ilə görüş də mənim üçün yaxşı başlamışdı. Lakin bunu sonadək davam etdirə bilmədim və rəqib finala vəsiqə qazandı. Tokio-2020-də mükafatçılar sırasına düşdüyüm və Yaponiya paytaxtında Azərbaycan bayrağını dalğalandırdığım üçün qürurluyam. Bununla kifayətlənməyəcəyəm. Əsas hədəfim növbəti yarışlarda da uğurlu çıxış edib, daha çox titul qazanmaqdır.




## Atletika

Avqsutun 3-də atletika üzrə Azərbaycan komandasının üzvü Nazim Babayev Tokio-2020-də mübarizəyə başlayıb. Üçtəkanla tullanma növündə mübarizə aparan atletimiz ilk cəhdində 16,38 metr nəticə göstərib. Təsnifat mərhələsində A qrupunda yarışan idmançımız ikinci cəhdində 16,30 metr nəticə göstərib. Atletimiz sonuncu cəhdində isə 16,72 metr nəticəyə nail olub. Bu, həm də Nazim Babayevin mövsümdə ən yaxşı göstəricisi olub. Lakin buna baxmayaraq, Avropa çempionumuz finala vəsiqə qazana bilməyib. O, A qrupunda 16 idmançı arasında 8-ci, yekunda isə 32 idmançı arasında 15-ci yeri tutub. İki qrupun nəticəsinə əsasən ilk 12 pillənin sahibi finalda iştirak etmək hüququ qazanıb.






Abdulrəşid Sadullayevin Tokio-2020-nin finalına vəsiqə qazanması səbəb olub. Yarışların ertəsi günündə təsəlliverici görüşə

növbəti görüşünü yaponiyalı Naoto Saqoya qarşı keçirib. Karateçimiz bu görüşdə rəqibinə minimal fərqlə qalib gəlib - 1:0. İdmançımız üçüncü görüşündə qazaxıstanlı Darxan Assadılovla

yaşlı idmançımızın ikinci cəhdi halqa ilə hərəkətlər olub. Bədii gimnastımızın budəfəki çıxışını hakimlər 23,000 xalla qiymətləndiriblər. Zöhrə Ağamirova lentlə hərəkətlərdə 19,900 xala layiq görülüb. Çıxışını gürzlərlə bitirən gimnastımız 21,500 xal alıb. Beləliklə, təmsilçimiz 4 hərəkətin yekununa əsasən, hakimlərdən 87,800 xal alıb. Gimnastımız bu nəticə ilə çoxnövçülük üzrə keçirilmiş təsnifat yarışlarında 18-ci yerdə qərarlaşıb. Bu isə idmançımızın finala çıxması üçün yetərli olmayıb. Beləliklə, Zöhrə Ağamirova Tokio-2020-də mübarizəni dayandırıb.

Qeyd edək ki, Z.Ağamirova Azərbaycan gimnastika tarixində Olimpiya Oyunlarında bədii gimnastika üzrə fərdi proqramda iştirak etmiş ilk azərbaycanlı idmançıdır.

# Azərbaycan idmançıları Tokio Olimpiadasında

## Güləş

Tokio-2020-nin güləş yarışlarının ilk günündə mübarizəyə xanım idmançımız Elis Manolova (68 kq) da başlayıb. İlk görüşünü 1/8 finalda nigeriyalı Blessinq Oborududuya qarşı keçirən xanım güləşçimiz xalçanı məğlub tərk edib. Buna baxmayaraq, rəqib idmançının finala çıxması E.Manolovanın bürünc medal uğrunda təsəlliverici görüşlərdə iştirak etməsinə şərait yaradıb. Təəssüf ki, güləşçimiz bu şansdan da yararlana bilməyib.

Belə ki, ertəsi gün bürünc medal uğrunda təsəlliverici görüşə çıxan Elis Manolova qırğızıstanlı Meerim Jumanazarova məğlub olaraq Tokio-2020-ni medalsız başa vurub.

* * *

Tokio Olimpiadasının güləş yarışlarının ikinci günündə İslam Abbasov (87 kq) xalça üzərinə çıxıb. Klassiklərin yarışında pəhləvanımız 1/8 finalda kubalı Daniel Heçavarria ilə üz-üzə gəlib. Təəssüf ki, güləşçimiz ilk görüşdə rəqibinə 1:3 hesabı ilə məğlub olub. İdmançımızın uduzduğu Daniel Heçavarria növbəti mərhələdə misirli Məhəmməd Metvalli ilə qarşılaşıb. Xorvatiyalı güləşçinin məğlub olması İslam Abbasovun təsəlliverici görüşdə iştirak etmək şanslarının üstündən xətt çəkib. Beləliklə, güləşçimiz Tokio-2020-də mübarizəni erkən dayandırıb.

* * *

Güləş yarışlarının növbəti günündə sərbəst güləşçimiz Turan Bayramov mübarizəyə başlayıb. 74 kq çəki dərəcəsində qüvvəsini sınayan pəhləvanımız ilk görüşünü 1/8 finalda Ukrayna təmsilçisi Vasil Mixaylova qarşı keçirib. Rəqibinə 4:2 hesabı ilə qalib gələn Turan adını növbəti mərhələyə yazdırıb. 1/4 finalda güləşçimizin rəqibi italiyalı Frank Çamizo olub. Təəssüf ki, Turan Bayramov bu görüşdə italiyalı güləşçiyə 1:3 hesabı ilə məğlub olub. F.Çamizo finala çıxacağı təqdirdə Azərbaycan təmsilçisi










təsəlliverici görüşdə iştirak etmək hüququ qazanacaqdı. Lakin italiyalı güləşçinin növbəti mərhələdə belaruslu Məhəmmədhəbib Hadıməhəmmmədova məğlub olması Turan Bayramovun Tokio-2020-dəki mübarizəsinin də başa çatmasına səbəb olub.

* * *

Tokio-2020 Yay Olimpiya Oyunlarının güləş yarışlarında daha bir sərbəst güləşçimiz, London-2012-nin qızıl, Rio-2016-nın bürünc medalçısı Şərif Şərifov mübarizə aparıb. 97 kq çəki dərəcəsində xalça üzərinə çıxan pəhləvanımız 1/8 finalda Rusiya Olimpiya Komitəsinin təmsilçisi Abdulrəşid Sadullayevlə qarşılaşıb. Təəssüf ki, güləşçimiz ilk görüşdə rəqibinə 0:5 hesabı ilə məğlub olub. Lakin buna baxmayaraq Olimpiya çempionumuz bürünc medal uğrunda mübarizə aparmaq imkanı qazanıb. Buna Şərif Şərifovun məğlub olduğu

çıxan Şərif Gürcüstan təmsilçisi Elizbar Odikadze ilə qarşılaşmada qalib gələrək bürünc medal uğrunda görüşə vəsiqə qazanıb. Pəhləvanımız bu görüşdə kubalı Reineris Salas Perezlə üz-üzə gəlib. Gərgin keçən görüş 3:3 hesabı ilə başa çatıb. Lakin son fəndi Kuba idmançısı tətbiq etdiyi üçün bürünc medala sahib çıxıb. Sərbəst güləşçimiz isə mübarizəni 5-ci yerdə tamamlayıb.

## Karate

Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarının karate yarışlarının ilk günündə idmançımız Firdovsi Fərzəliyev (67 kq) mübarizəyə başlayıb. A qrupunda yer alan karateçimiz ilk görüşdə türkiyəli Eray Şamdanla qarşılaşıb. Təmsilçimiz görüşü 1:7 hesabı ilə məğlub başa vurub. F.Fərzəliyev

üz-üzə gəlib. F.Fərzəliyev bu görüşdə rəqibinə 2:6 hesabı ilə məğlub olub. İdmançımız A qrupunda sonuncu görüşündə misirli Əli Elsavi ilə qarşılaşıb. Firdovsi Fərzəliyev bu qarşılaşmada rəqibinə 0:1 hesabı ilə məğlub olub. Beləliklə, karateçimiz A qrupunda keçirdiyi 4 görüşdən 3-nü məğlub kimi başa vurub. O, öz qrupunda sonuncu - beşinci yeri tutub. İdmançımız bu nəticə ilə qrupda qalaraq Tokio-2020-də mübarizəni dayandırıb.

## Gimnastika

Tokio-2020 Yay Olimpiya Oyunları çərçivəsində keçirilən bədii gimnastika üzrə fərdi yarışlarda Azərbaycan komandasının üzvü Zöhrə Ağamirova da mübarizə aparıb. Bədii gimnastımız ilk olaraq topla hərəkətlərdə öz çıxışını təqdim edib. O, birinci cəhdində hakimlərdən 23,400 xal alıb. 20

* * *

Tokio-2020 Yay Olimpiya Oyunlarının 16-cı günündə Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətlərindən ibarət komandası mübarizə aparıb. Ləman Əlimuradova, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Nərminə Səmədova və Darya Sorokinadan ibarət olan komandamız əvvəlcə 5 topla hərəkətlərdə bacarığını nümayiş etdirib. Komandamız bu hərəkətinə görə hakimlərdən 36,700 xal alıb.

Komandamızın növbəti cəhdi 3 halqa və 2 cüt gürzlə olub. Gimnastlarımızın bu hərəkətini isə hakimlər 37,650 xalla qiymətləndiriblər.

Beləliklə, komandamız iki hərəkətin cəmində hakimlərdən 74,350 xal alıb. Gimnastlarımız bu nəticə ilə 14 ölkə arasında 10-cu yeri tutaraq, Tokio-2020-nin finalından kənar qalıblar. Finala yüksəlmək üçün isə komandamız ilk “8-liy”ə düşməli idi.

# TOKİO - 2020











# XXXII Yay Olimpiya Oyunlarında yadda qalan anlar



























*Foto: Dilavər Nəcəfov (Tokio)*




# Tokio-2020 Yay Paralimpiya Oyunlarında komandamızın bayraqdarı İlham Zəkiyev olacaq

Avqustun 6-da Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimovun iştirakı ilə mətbuat konfransı təşkil olunub.

Əvvəlcə Tokio-2020 Yay Paralimpiya Oyunlarında mübarizə aparacaq Azərbaycan komandasının forması təqdim olunub. Formalar "SOCAR Polymer" şirkətinin dəstəyi ilə hazırlanıb.

Konfransda çıxış edən İlqar Rəhimov Azərbaycan paralimpiyaçılarının Tokio-2020-yə 36 lisenziya qazandığını bildirib. Bunun ötən illərlə müqayisədə rekord göstərici olduğunu deyən AMPK-nın prezidenti lisenziyalardan 12-sinin paraatletika, 11-nin paracüdo, 4-nün parataekvondo, 4-nün pouerliftinq, 3-nün üzgüçülük və 2-nin güllə atıcılığı növündə olduğunu diqqətə çatdırıb.

"Komanda üzvlərinin hazırlıq səviyyəsinin daha da artırılması məqsədilə Oyunlarda iştirak edəcək idmançılar hazırda yerli və beynəlxalq təlim-məşq toplanışlarında məşqlərini davam etdirirlər. Baş məşqçilərin son məruzəsinə əsasən, əminliklə demək olar ki, idmançılarımız Tokioya tam hazır, yüksək əhval-ruhiyyədə yola düşəcəklər. Bu il Azərbaycan Paralimpiya Oyunlarına ölkəmizin 10-a yaxın şəhər və rayonundan 24-ü kişi və 12-si qadın olmaqla 36 idmançı (7 nəfər əlil arabası istifadəçisi) ilə mübarizə aparacaq.

Tokio-2020 Azərbaycan paralimpiyaçıları üçün sayca yeddinci Paralimpiada olacaq. Daha əvvəl keçirilmiş 6 Paralimpiya Oyunlarında 83 idmançımız 38 medal qazanıb. Yeddi Paralimpiya çempionumuz var, onlardan 2-si bu ada iki dəfə sahib olub. Ən uğurlu iştirakımız isə London-2012 Yay Paralimpiya Oyunlarında olub. Həmin Paralimpiadaya 21 idmançı ilə yollanan komandamız 4 qızıl, 5 gümüş və 3 bürünc medal qazanıb", - deyə İlqar Rəhimov qeyd edib.

AMPK-nın prezidenti həmçinin Uşaq Paralimpiya hərəkatının üzvlərinin də Tokioda ölkəmizi təmsil edəcəklərini söyləyib: "Yeniyetmələr Dana Şandıbina və Vəli İsrafilov üzgüçülük idman növündə millinin tərkibində olacaq. Komandamızın ən gənc idmançısı Dana Şandıbinanın 17, ən yaşlı idmançısı güllə atıcımız Yelena Taranovanın isə 59 yaşı var. Y.Taranova 6-cı dəfə paralimpiadada qüvvəsini sınayacaq".

İlqar Rəhimov Azərbaycan təmsilçilərinin Tokio-2020 Yay Paralimpiya Oyunlarına yollanacağı tarix barədə də məlumat verib. O, ilk olaraq üzgüçülərin Yaponiyaya yollanacaqlarını söyləyib: "Milli komanda avqustun 10-da Yaponiyanın Şika şəhərində keçiriləcək təlim-məşq toplanışına, oradan isə paytaxt Tokioya gedəcək. Ən böyük heyət isə avqustun 19-u yola düşəcək".

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti mətbuat konfransında Azərbaycan komandasının bayraqdarının da adına aydınlıq gətirib. Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarının açılış mərasimində Azərbaycan komandası 30 nəfərlik heyətlə təmsil olunacaq. Açılış mərasimində Azərbaycan komandasının bayraqdarı ikiqat Paralimpiya çempionumuz İlham Zəkiyev olacaq", - deyə İlqar Rəhimov bildirib.

Qeyd edək ki, Tokio-2020 XVI Yay Paralimpiya Oyunları avqustun 25-dən sentyabrın 6-dək davam edəcək.

Tokio-2020 Yay Olimpiya Oyunlarının cüdo yarışlarından sonra tərtib olunan siyahıda Azərbaycan yığmasının üç idmançısı "ilk onluq"da yer alıb. Ən yaxşı təmsilçilərimizdən biri Rüstəm Orucov 7157 xalla dünya üçüncüsüdür. 73 kq çəkidə Olimpiadanın 5-cisi olan cüdoçumuz reytinqinə 792 xal əlavə edib. Tokio-2020-də medalsız qalan Rio Olimpiadasının gümüş mükafatçısı reytinqdə bir pillə geriləyib.

# Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb

Tokio-2020-nin bürünc mükafatçısı İrina Kindzerska qazandığı medal sayəsində reytinqinə 1100 xal əlavə edib. +78 kq çəkidəki təmsilçimiz aktivindəki xallarının sayını 7314-ə çatdırsa da, dünya sıralamasında 3-cü pillədə qalıb.

100 kq çəkidə 9-cu olan Zelim Kotsoyevin də mövqeyi dəyişməz qalıb. 5097 xala malik legionerimiz Tokio-2020-də reytinqini artıra bilməyib.

Digər cüdoçularımızdan Məmmədəli Mehdiyev (90 kq) iki pillə geriləyərək 15-ci olub. Hərəyə bir pillə geriləyən Hidayət Heydərov (73 kq) 13-cü, Nicat Şıxəlizadə (66 kq) 24-cü, Aişə Qurbanlı (48 kq) 35-ci və Leyla Əliyeva (48 kq) 38-ci sırada qərarlaşıb.



# Vətən müharibəsinin şəhidlərinin xatirəsinə turnir keçirilib

Yasamal rayon İcra Hakimiyyəti və Yasamal rayon Gənclər və İdman İdarəsi tərəfindən Vətən müharibəsi şəhidlərinin doğum günləri ərəfəsində təşkil olunan ənənəvi tədbirlər davam etdirilir. İdarə tərəfindən təşkil olunan növbəti belə tədbir Vətən müharibəsinin şəhidləri Həmidağa Hüseynzadənin, Hüseyn Tağıyevin və Tacəddin Əzizlinin xatirəsinə həsr olunmuş güllə atıcılığı üzrə turnir olub. Yasamal rayon İcra Hakimiyyətinin, Yasamal rayon Gənclər və İdman İdarəsinin və Bakı Atıcılıq Mərkəzinin birgə təşkilatçılığı ilə doğum günləri avqust ayına təsadüf edən Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr edilmiş güllə atıcılığı üzrə turnir iki gün davam edib. Turnirin final mərhələsindən sonra qaliblərin təntənəli mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə çıxış edən Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov müzəffər ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini yaşatmaq və gənclər arasında təbliğ etmək məqsədi ilə keçirilən turnirlərin əhəmiyyətindən danışıb.

Millət Vəkili Səbinə Xasayeva, Yasamal rayon İcra Hakimiyyəti Başçısı Aparatının şöbə müdiri Xaqan Teymurov, Olimpiya çempionu Zemfira Meftaxetdinova, Olimpiya mükafatçısı İradə Aşumova, Yasamal rayon İcra Hakimiyyəti Başçısı Aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Samir İsmiyev, "Əməkdar idman ustası", 4 qat dünya və 7 qat Avropa çempionu, dünya rekordçusu Vüqar Namazov, Yasamal rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qurbanov, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Yasamal rayon Təşkilatının sədri Bəhram Şeydayev çıxış edərək Vətən müharibəsi şəhidlərinin xatirəsini ehtiramla anıblar.

Tədbirin sonunda Vətən müharibəsi şəhidlərinin ailə üzvləri çıxış edərək onların keçdiyi şərəfli döyüş yolundan, Vətən eşqindən danışıb, turnirin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

Olimpiya mükafatçısı İradə Aşumovanın baş hakim olduğu turnirin qalibi adına qızlar arasında Nəzrin Abbaslı, oğlanların mübarizəsində isə İmran Qarayev layiq görülüb. Turnirdə ümumilikdə 50-dək idmançı öz qüvvəsini sınayıb.

Məlumat üçün qeyd edək ki, Vətən müharibəsinin şəhidi Həmidağa Hüseynzadə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda"



və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Vətən müharibəsinin digər şəhidləri Hüseyn Tağıyev "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə, Tacəddin Əzizli isə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

# Millimizin oyunlarında VAR sistemi tətbiq ediləcək

DÇ-2022-nin Avropa zonası üzrə seçmə mərhələ oyunlarında bu ilin sentyabrından VAR (video-köməkçi hakim) sistemi tətbiq olunacaq. Bu barədə UEFA İcraiyyə Komitəsi qərar qəbul edib.

Qeyd edək ki, Azərbaycan millisi seçmə mərhələdə sentyabrın 7-də Bakıda Portuqaliya ilə qarşılaşacaq.

İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik
olimpiyadunyasi.com onlayn qəzetindən oxuyun




REDAKSİYANIN POÇTUNDAN

# "Könüllülər kuboku" turnirinin respublika zona mərhələsi

Avqustun 6-8-də Astara Olimpiya İdman Kompleksində şahmat üzrə "Könüllülər kuboku" turnirinin respublika zona mərhələsi keçirilib.

Turnir Gənclər və İdman Nazirliyi, "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi, Astara Rayon Gənclər və İdman İdarəsi, Astara Uşaq Gənclər İdman-Şahmat Məktəbi, Astara Olimpiya İdman Kompleksinin birgə təşkilatçılığı ilə baş tutub.

Yarış COVİD-19 pandemiyasına qarşı əsas müdafiə tədbirlərinə əməl etmək şərtilə keçirilib.

Tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızın xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.



Sonra Gənclər və İdman Nazirliyinin nümayəndəsi Əliniyaz Mirzəyev, Astara Rayon Gənclər və İdman İdarəsinin rəisi Ərçə Əliyev, Astara Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Şahmat üzrə Beynəlxalq dərəcəli hakim, yarışın baş hakimi Azər İbrahimov çıxış edərək, ölkəmizdə idmanın müxtəlif növlərinin və o cümlədən könüllü gənclər arasında idmanın inkişafı, oyunların qaydaları haqqında geniş məlumatlar verib və idmançılara uğurlar arzulayıblar.

Yarışda IV zona üzrə 8 rayon komandası mübarizə aparıb. Yekun nəticədə I yeri Lənkəran rayon komandası, II yeri Astara rayon komandası tutaraq yarışların final mərhələsində mübarizə aparmaq hüququ qazanıb. "Könüllülər Kuboku" turnirinin final mərhələsinin avqustun 18-20-də Lənkəran Olimpiya İdman Kompleksində keçiriləcək.

*İqrar Cəfərov,*
*Astara RGİİ-nin rəis müavini,*

*Rufan Şirinov,*
*Astara RGİİ-nin aparıcı məsləhətçisi*

# Dünya idmanı






## Lionel Messi vida mərasimində göz yaşlarını saxlaya bilmədi

"Barselona"nın argentinalı ulduzu Lionel Messi kataloniya klubu ilə vidalaşıb. 34 yaşlı futbolçu "Barselona"dan ayrılması ilə bağlı "Kamp Nou" stadionunda mətbuat konfransı təşkil edib. Lionel Messi mətbuat konfransında çıxış edərkən göz yaşlarını saxlaya bilməyib.

"13 yaşımdan bəri buradayam. 21 ildən sonra mənim üçün doğma olan evimdən həyat yoldaşım və 3 övladımla birgə ayrılıram. Hər şeyə, komanda yoldaşlarıma və bir çox insanlara minnətdarlığımı bildirirəm. Buraya gəldiyim gündən bu klub üçün hər şeyi etdim. Bu şəkildə vidalaşmağı heç ağlıma belə gətirməzdim. Azarkeşlərlə vidalaşmadan klubdan ayrılıram. Bir il yarım azarkeşləri görmədim, indi isə klubdan gedirəm. Təəssüf ki, belə oldu. Azarkeşlərin sevgisinə görə minnətdaram. Müqaviləm başa çatdı. Qalmaq istədim. Haqqımda çox şey söyləndi, amma qalmaq istədiyim üçün əlimdən gələni etdim. La Liqa səbəbindən bu müqavilə alınmadı", - deyə Messi çıxışında bildirib.

### Məşhur idmançı karyerasını başa vurur

İtaliyalı məşhur idmançı Valentino Rossi motosiklet yarışlarındakı karyerasını başa vurur. O, bu barədə mətbuat konfransında bildirib. 42 yaşlı idmançının MotoGP-də son yarışı noyabrın 14-də Valensiya Qran-prisi olacaq. Rossi karyerasını WEC-də (Dünya Dözümlülük Çempionatı) davam etdirəcəyini açıqlayıb.

Qeyd edək ki, 2000-ci ildən MotoGP-də yarışan Velentino Rossi 7 dəfə çempion olub.

### Dünya Kubokunun qalibi müəyyənləşib

Rusiyanın Soçi şəhərində keçirilən şahmat üzrə Dünya Kubokunun qalibinin adına aydınlıq gəlib. Polşa təmsilçisi Yan-Kşiştof Duda finalda rusiyalı Sergey Karyakinlə üz-üzə gəlib. İlk görüşdə qrossmeysterlər xalları yarı bölüb - 0,5;0,5. İkinci qarşılaşmada isə Duda qalib gələn tərəf olub. Üçüncü yer uğrunda dueldə Rusiyanın digər təmsilçisi Vladimir Fedosyev hər iki oyunda norveçli dünya çempionu Maqnus Karlsenə uduzub - 0:1;0:1.

## Macarıstan 2037-ci ilədək Formula 1 yarışlarına ev sahibliyi edəcək

Formula 1 üzrə Macarıstan Qran-prisi 2037-ci ilədək təqvimdə yer alacaq. Yarış rəhbərliyi uzunmüddətli müqavilə ilə bağlı qarşı tərəflə razılığa gəlib.

Qeyd edək ki, "Hunqaroring" trasındakı ilk yarış 1986-cı ildə keçirilib. Qran-pri o vaxtdan dünya çempionatının təqviminə daxil edilib.




## Daha bir futbolçu oyun zamanı huşunu itirdi

Futbol üzrə Rusiya Premyer Liqasında "Spartak"-"Nijni Novqorod" oyununda qonaqların futbolçusu İvan Miladinoviç hava mübarizəsində rəqib oyunçu ilə toqquşaraq huşunu itirib. Dərhal hər iki komandanın tibb işçiləri futbolçuya kömək etmək məqsədi ilə meydançaya daxil olublar. Futbolçunun huşunu geri qaytarmaq mümkün olsa da, o, meydançadan birbaşa xəstəxanaya aparılıb. Onun hərtərəfli müayinədən keçəcəyi bildirilib. Qeyd edək ki, oyun "Nijni Novqorod"un "Spartak" üzərində 1:2 hesablı qələbəsi ilə başa çatıb.








## Mixael Ballakın oğlu qəzada dünyasını dəyişdi

Almaniya millisinin, "Bavariya"nın və İngiltərənin "Çelsi" klubunun keçmiş futbolçusu Mixael Ballakın oğlu Emilio dünyasını dəyişib. O, 18 yaşında motosiklet qəzasında vəfat edib. Qəza Portuqaliyanın paytaxtı Lissabonun cənubunda Mixael Ballakın evinin yaxınlığında baş verib.

Qeyd edək ki, Mixael Ballak 1999 - 2010-cu illərdə Almaniya millisində çıxış edib. O, 2002-ci ildəki dünya çempionatında gümüş, 2006-cı ildəki mundialda isə bürünc medal qazanıb. 45 yaşlı keçmiş yarımmüdafiəçi 2008-ci ildəki Avropa çempionatında gümüş mükafatçı olub.

olimpnews.az - sizin saytınız




Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19